Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
birbank

# RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 11
# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1-5-ci tapşırıqları mətnə əsasən cavablandırın.**

## Mahmud Kaşğari və onun "Divanü lüğat-it-türk" əsəri

Mahmud Kaşğari Qaraxanlılar dövlətində yaşamış filoloq və leksikoqrafdır. Türk dünyasının ilk ensiklopedik lüğəti "Divanü lüğat-it-türk" (Türk dillərinin divanı) əsərinin müəllifidir.

O, 1029-cu ildə Kaşğar elinin Azıx kəndində (indiki Özbəkistan) anadan olmuşdur. Bəzi mənbələrə görə isə İsık-Kul gölünün sahilində, qüdrətli türk dövləti – Qaraxanlı dövlətinin paytaxtı olan Balasaqun şəhərinin yaxınlığında, Barskan şəhərində dünyaya gəlmişdir.

İlk təhsilini Kaşğarda Saciyə və Hamidiyyə mədrəsələri kimi elm mərkəzlərində almış, dövrünün elmləri ilə bərabər ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Təxminən 1058-ci ildə Bağdada getmiş, bir müddət burada yaşamışdır. Bağdad həmin zaman Səlcuq imperiyasına tabe idi. Ərəblərin türkləri tanıması, onların adət və ənənələrini öyrənməsi baxımından çətinlik çəkməsi, xüsusən dil problemləri, yəni türkcə-ərəbcə lüğət yazmaq zərurəti M.Kaşğaridə bir əsər qələmə almaq ideyasını yaratdı. On il müddətində bir çox ərazilərə səyahət etdikdən sonra adını tarixə həkk edən ensiklopedik əsəri – "Divanü lüğat-it-türk"ü yazdı.

Təxminən 1080-ci ildə Kaşğara qayıdan alim ömrünün sonuna qədər orada yaşamış, 1105-ci ildə dünyasını dəyişmiş, Kaşğar yaxınlığında Opal kəndində dəfn olunmuşdur.

Lüğət formasında tərtib olunan "Divanü lüğat-it-türk" əsəri ensiklopedik xarakter daşıyır. Türk dilləri, türklərin tarixi, coğrafiyası, folkloru, mifologiyası, müəyyən qədər astronomiyası ilə bağlı materialları əhatə edən bir bilik xəzinəsidir. Əsərdə 7500-dən çox türkcə sözün ərəb dilində şərhi verilib. Bu əsərə türk xalqlarının həm şifahi, həm də yazılı ədəbiyyatından şeir nümunələri də daxil edilib. Şeirlər əsasən dördlük formasındadır. "Divanü lüğat-it-türk" əsərində türk dillərində ahəng qanununun olması haqqında ilk dəfə məlumat verilir.

Kitabın gəlib çatan nüsxəsi 319 səhifədən ibarətdir. Alim bu əsəri yazmaq üçün 10 ildən artıq türklər yaşayan bölgələri gəzərək material toplamışdır. 1072-1074-cü illər arasında yazdığı əsərini 1076-cı ilə qədər təkmilləşdirmiş, daha sonra Bağdadda Abbasi xəlifəsinə təqdim etmişdir.

Müəllif ensiklopediyada "Dünya xəritəsi" adlanan bir xəritə də vermişdir. Bu xəritədə mərkəz Balasaqunu seçərək türklərin yaşadığı bütün əraziləri qeyd etmişdir. Xəritə üzərində *"Əradi-Azərabadkan"* yer adı da verilmişdir. Kaşğari xaqaniyə, uyğur, oğuz, qıpçaq, qırğız, çigil, yağma, arqu və digər türksoylu xalqları türk adı altında cəmləşdirən bir türkoloqdur. Türklərin dillərini sözlərin tələffüz formalarına görə bir-biri ilə müqayisə edən tükoloq eyni zamanda onların yaşadıqları ölkələr, şəhərlər, qəsəbələr, kəndlər haqqında məlumat verərək "Türk coğrafiyaşünası" ünvanını almışdır. YUNESKO tərəfindən 2008-ci il "Mahmud Kaşğari ili" elan olunmuşdur.

<u>Kaşğarinin konkret bir sahəyə – türk dilinin qrammatikasına həsr etdiyi "Kitabu-cəvahirin-nəhv fi luğat-it-türk" (Türk dilinin qrammatika cövhərləri kitabı) adlı əsəri də vardır, amma bu əsər hələ də tapılmamışdır.</u>

**1. Mətnə əsasən hansı nəticəyə gəlmək mümkün deyil?**

A) Mətndə altından xətt çəkilmiş cümlədə "*nəhv*" qrammatika, *lüğət* "dil" mənasına gəlir.
B) M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri ikidilli lüğətlərdəndir.
C) O dövrün əsərlərinə adətən ərəbcə adlar qoyulmuşdur.
D) M.Kaşğari "Divanü lüğat-it-türk" adlı ensiklopedik əsərini yazmaqla kifayətlənməmiş, daha geniş sahəyə başqa bir əsər – "Kitabu-cəvahirin-nəhv fi luğati-t-türk"ü həsr etmişdir.
E) "Divanü lüğat-it-türk"də türk ədəbiyyatından bədii nümunələrə yer verilməklə yanaşı, türk dilinin linqvistik xüsusiyyətlərinə də toxunulmuşdur.

**2. Mətnə əsasən verilən ehtimallardan biri məntiqli görünmür.**

A) M.Kaşğari "Dünya xəritəsi" adlanan xəritəsində Balasaqun şəhərini qüdrətli türk dövləti − Qaraxanlı dövlətinin paytaxtı olduğuna görə mərkəz seçmişdir.

B) Əsərdə verilən şeir nümunələri arasında folklor materialları da vardır.

C) M.Kaşğari ayrı-ayrı vaxtlarda iki dəfə Kaşğarda, iki dəfə Bağdadda olmuşdur.

D) M.Kaşğarinin belə zəngin əsər ərsəyə gətirməsində mükəmməl təhsil almağa ehtiyac olmamış, onun zəhmətkeş səyyah olması bu işdə əsas rol oynamışdır.

E) Xəritə üzərində *"Əradi-Azərabadkan"* yer adı da qeyd edilmişdir ki, bu da Azərbaycan diyarı ola bilər.

**3. Mətnə əsasən, hansı sualın cavabı yoxdur?**

A) M.Kaşğari "Divanü lüğat-it-türk" əsərini necə ərsəyə gətirmişdir?

B) "Divanü lüğat-it-türk"ün məzmunu nədən ibarətdir?

C) "Kitabu-cəvahirin-nəhv fi luğat-it-türk" əsəri niyə itmişdir?

D) M.Kaşğari "Türk coğrafiyaşünası" ünvanına hansı xidmətinə görə layiq görülmüşdür?

E) "Divanü lüğat-it-türk" əsərinin ensiklopedik əsər adlanmasının səbəbi nədir?

**4. Xronoloji ardıcıllığa görə hansı hadisə *üçüncü* baş vermişdir?**

A) M.Kaşğarinin dünya xəritəsini tərtib etməsi

B) M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsərini Abbasi xəlifəsinə təqdim etməsi

C) M.Kaşğarinin birinci dəfə Kaşğara getməsi

D) YUNESKO tərəfindən "Mahmud Kaşğari ili"nin elan olunması

E) M.Kaşğarinin ikinci dəfə Bağdada getməsi

**5. Mətnə əsasən, "Divanü lüğat-it-türk"ün məzmunu haqqında gəlinən nəticələrdən biri yanlışdır:**

A) Bir dil sadəcə sözlərdən ibarət deyildir, o dildə o xalqın mədəniyyəti yaşayır. Dil öyrənilərkən həmin xalqın mədəniyyəti də öyrənilir.

B) Bir lüğətin zəngin, dəqiq və hərtərəfli olması üçün dillərin danışıldığı bölgələri addım-addım gəzmək, dilin lüğətini kitablardan deyil, ilk növbədə xalqdan toplayıb yazmaq lazımdır.

C) M.Kaşğari türk dillərinin leksik xüsusiyyətlərini tarixi, coğrafi və bədii kontekstlərlə birləşdirərək təqdim etməyi lazım bilmişdir.

D) "Divanü lüğat-it-türk" əsəri sırf dilçilik kitabı olmaqdan daha çox türk dünyasının müxtəlif sahələrini əks etdirən ensiklopedik bir əsərdir.

E) M.Kaşğari "Divanü lüğat-it-türk"ü yazarkən lüğət formasına əməl etməmiş, əsasən xalqın mədəniyyətini, dünyagörüşünü, coğrafiyasını təsvir etməyi əsas məqsəd saymışdır.

**6. İsmin hansı hal(lar)ı haqqında verilmiş fikirlər səhvdir?**

1) Adlıq hallı isimlər cümlədə tamamlıq vəzifəsində işlənə bilər.

2) Mənsubiyyət şəkilçisi söz yiyəlik hallı söz olmadan cümlədə işlənə bilsə də, yiyəlik hallı söz mənsubiyyət şəkilçili söz olmadan cümlədə işlənə bilməz.

3) Yönlük hal şəkilçisi qəbul etmiş bir söz həm məkan, həm də obyekt kimi çıxış edə bilər.

4) Saitlə bitən sözə təsirlik hal şəkilçisi artırıldıqda həmin sözü iki müxtəlif şəxsdə düşünmək olar.

5) Çıxışlıq hallı sözlər zaman mənalı qoşmalarla işlənmədən də zaman zərfliyi ola bilər.

A) adlıq, yerlik B) yalnız çıxışlıq
C) yiyəlik, təsirlik D) yalnız yiyəlik
E) yalnız yönlük

**7. Fikirləri doğru və yanlış olmaqla qruplaşdırın.**

*Araz buruldu, getdi,*
*Suyu duruldu, getdi.*
*Mən dedim, yar incidi,*
*Demə, yoruldu, getdi*
*(Bayatı)*

1) Düzəltmə feillər qayıdış növdədir.
2) İsimlər adlıq halda mübtəda vəzifəsindədir.
3) İsimlə omonim olan feil, feillə omonim olan isim işlənib.
4) Bayatıda quruluşca həm sadə, həm də düzəltmə xəbərlər işlənib.
5) Nümunədə işlənmiş bütün sözlərin sintaktik vəzifəsi var.

A) 1, 2, 5 – doğru; 3, 4 – yanlış
B) 2, 3, 5 – doğru; 1, 4 − yanlış
C) 2, 4 – doğru; 1, 3, 5 – yanlış
D) 1, 3, 4 – doğru; 2, 5 – yanlış
E) 1, 5 – doğru; 2, 3, 4 – yanlış

**8. Yanlış fikri müəyyən edin.**

A) Düzəltmə zərflər əsas nitq hissələrinin hər birindən yarana bilər.
B) Zərflər feillə yanaşı, ismə, sifətə, saya da aid olur.
C) *Lazımınca, düzünə, çaparaq* – quruluşca düzəltmə zərflərdir.
D) *Vaxtsız, dərhal, əvvəldən-axıra* sözləri zərfin eyni məna növünə aiddir.
E) *Qat-qat* sözü tərzi-hərəkət zərfi olmaqla yanaşı, miqdar zərfi də ola bilər.

**9. Hansı variantda cədvəlin hər iki tərəfi doğru verilib?**

*Geniş çöllərin qoynundakı kəndləri, çılpaq ağaclarla dolu bağçaları, payızlıq taxıl zəmilərini bir qaranlıq örtürdü* (M.İbrahimov).

| | Cümlə üzvləri | İfadə vasitələri |
|---|---|---|
| A) | Mübtəda | İsim |
| B) | Xəbər | Frazeoloji birləşmə |
| C) | Tamamlıq(lar) | İsim |
| D) | Təyin(lər) | Sifət |
| E) | Zərflik(lər) | İsim |

**10. Hansı əvəzliklərlə bağlı hər iki fikir doğrudur?**

| | |
|---|---|
| Şəxs əvəzlikləri | 1) Mətn daxilində sifəti, sayı, feili sifəti də əvəz edə bilər.<br>2) Heç bir halda qeyri-müəyyən yiyəlik halda işlənə bilməz. |
| İşarə əvəzlikləri | 3) *Bu* əvəzliyindən sonra əvəzlik gələrsə, vergül qoyula bilər.<br>4) *Həmin* əvəzliyi sifəti, sayı, ismi əvəz edə bilər. |
| Təyini əvəzliklər | 5) Bir qismi qrammatik şəkilçi qəbul edib müxtəlif cümlə üzvləri ola bilər.<br>6) Sifəti və ismi əvəz etsə də, əvəzliyi əvəz etmir. |
| Sual əvəzlikləri | 7) Qeyri-müəyyən əvəzliklər kimi quruluşca sadə, düzəltmə və mürəkkəb olur.<br>8) İsmi və feili xəbər ola bilir. |

A) şəxs, sual
B) yalnız işarə
C) işarə, təyini
D) işarə, sual
E) yalnız təyini

**11. Hansı variantda fikirlərin doğru və yanlış olduğu düzgün göstərilmişdir? (doğru – D, yanlış - Y)**

*Bu zaman məzarın başı ucunda qoyulmuş top kimi yuvarlaq və şaquli şəkilli bir çox təbii daşlar gördüm.* (A.Şaiq)

1) Quruluşca sadə, düzəltmə, mürəkkəb sözlər işlədilib.
2) Sifətlərin ikisi quruluşca düzəltmədir və təyin vəzifəsindədir.
3) Bütün əsas nitq hissələrindən istifadə olunub.
4) Qeyri-müəyyən hallarda işlənən isimlərdən biri müstəqil cümlə üzvüdür, digəri ismi birləşmənin tərkibindədir.
5) Cümlə üzvü olaraq təyinin, nitq hissəsi kimi ismin sayı digərlərindən çoxdur.

A) 1-Y; 2-Y; 3-Y; 4-D; 5-Y
B) 1-D; 2-Y; 3-Y; 4-Y; 5-D
C) 1-Y; 2-D; 3-D; 4-D; 5-Y
D) 1-D; 2-D; 3-D; 4-Y; 5-D
E) 1-Y; 2-Y; 3-D; 4-Y; 5-D

**12. Hansı sual cümləsini söz-cümlə ilə cavablandırmaq olar?**
A) Hər gün gördüyün adamlardır, kimdən şübhələnirsən?
B) Bəs sən niyə susursan?
C) Bu eşitdiklərimin hansı doğrudur?
D) Respublikamız neçənci ildə müstəqillik qazanmışdır?
E) Bir də nə vaxtsa bu yerlərə qayıdacaqsan?

**13. Verilmiş nümunə ilə bağlı doğru fikri müəyyən edin.**

*Dayım burda yox idi − cavanları başına yığıb Qaradolaqlar obasına toya getmişdi, yoxsa selbasarlıların qabağında durardı.*

*Səkinə nənə kişi kimi gurultulu səslə onlara tərəf qışqırdı:*

*− Ehey, ey selbasarlılar, cahıllar obada yoxdur, ona görə kişiləşmisiz? (İ.Əfəndiyev)*

A) Nümunədə işlənmiş xitab quruluşca mürəkkəb isimlə ifadə olunub, vurğusu sonuncu hecada deyil.
B) Ara sözlə bağlı durğu işarəsində yanlışlığa yol verilmişdir.
C) Sadə və mürəkkəb söz birləşmələrindən istifadə olunub.
D) Nümunədə tabesizlik və tabelilik əlaqəsində olan cümlə üzvləri var.
E) Mübtəda və xəbərlər arasında şəxsə görə uzlaşma pozulub.

**14. Birində tərəflər arasında məna bağlılığı yoxdur.**
A) korrektor - korrektura
B) metallurq - metallurgiya
C) kinoloq – kinematoqrafiya
D) senzor - senzura
E) redaktor - redaktə

**15. Mətndə nömrələnmiş cümlələrdən hansı fikrin məntiqi ardıcıllığını *pozur*?**
*I. O, həyatı yaşayaraq öyrənmiş bir yazıçı idi. II. Təcrübələrini və müşahidələrini hər kəslə bölüşərdi. III. Müstəqil şəkildə öyrəndiyi üç xarici dildə yüksək səviyyədə danışa bilirdi. IV. Müəllim kimi fəaliyyət göstərmiş, siyasətlə məşğul olmuş, ölkəsində və xaricdə bir çox yerə səyahət etmişdi. V. Bəzi roman və hekayələri ölümündən sonra nəşr olunmuşdu. VI. Gəzdiyi, gördüyü yerlərin rəngarəngliyini böyük ustalıqla əsərlərində əks etdirmişdi.*
A) II B) III C) IV
D) V E) VI

**16. Verilmiş fikirlər hansı obrazlara aiddir? Həmin obrazların adı və aid olduğu əsərlər hansı variantda ardıcıllıqla verilmişdir?**
1) Əsl simasını maskalanaraq gizlədir, nitqində varvarizmlərdən geniş istifadə edir, əsərin konfliktinin bir qütbünü təşkil edir.
2) Günahını gec də olsa, başa düşür, mühafizəkar və xudbindir, təhsilə qarşı deyil.
3) Həyatı dərk etməyə çalışır, xaraktercə dəyişkəndir, sınaqlardan çıxa bilmir.
4) Yalnız şəxsi mənafeyini düşünür, paxıldır, insani keyfiyyətlərdən uzaqdır.

A) Rüstəm bəy – “Anamın kitabı”
Əmiraslan – “Nurəddin”
Həmzə − “Həmzənin Qıratı qaçırması”
Məşədi Abbas – “Bahar” (“Bir gəncin manifesti”)

B) Məstəli şah – “Hekayəti Müsyö Jordan...”
Rüstəm bəy – “Müsibəti-Fəxrəddin”
Arif – “İblis”
Daşdəmir – “Zəhər”

C) Dara – “İskəndərnamə”
Səməd Vahid – “Anamın kitabı”
Qurbanəli bəy – “Qurbanəli bəy”
Rüstəm bəy – “Müsibəti-Fəxrəddin”

D) Mirzə Məhəmmədəli – “Anamın kitabı”
Əmiraslan – “Nurəddin”
Sərdar Zaman xan – “Aldanmış kəvakib”
Leylinin atası – “Leyli və Məcnun”

E) Qurbanəli bəy – “Qurbanəli bəy”
Rüstəm bəy – “Müsibəti-Fəxrəddin”
Şah Abbas – “Aldanmış kəvakib”
Kərbəlayı Zal – “Bomba”

**17. M.Şəhriyarın “Heydərbabaya salam” poeması ilə bağlı hansı fikirlər yanlışdır?**
1) Xalq adət-ənənələrinə geniş yer verilməsi keçmişlə gələcək arasında mənəvi körpü qurmaq ideyası ilə bağlıdır.
2) Şair Heydərbaba dağına vətənin rəmzi, uşaqlıq xatirələrinin şahidi kimi üz tutur.
3) Heydərbaba dağının dili ilə: Bala, gəldin? Niyə belə gec gəldin? − deyilir.
4) Müəllif Heydərbaba dağı ilə, dağ da müəlliflə danışır.
5) “Mərdə şirin, namərdə çox acı”, “məzlumların haqqı üstə əsən” Mirmustafa obrazı xatırlanır.

A) 1, 3 B) 2, 4 C) 1, 5 D) 3, 5 E) 1, 4

**18. C.Məmmədquluzadənin “Anamın kitabı” əsərindən verilmiş cümlələr hansı variantda ardıcıllıqla düzülmüşdür?**
1) O ki qaldı küsuf dərsləri, bəli, həqdir, bir altı ay da küsuf dərsləri təhsil olunmalıdır.
2) Biz də yoldaşlarımıznan oturmuşduq kəklik təpəsinin yamacında, qoyunlara baxırdıq.
3) Amma mənim qanacağıma görə sizin kitabınızda olan məlumat məhz Yevropa və Rusiya mənbəyindən əxz olunmuşdur.
4) Xub, bunlar cəmisi rus lüğətləridir. Bunlardan bizim üçün bir mətləb hasil olmadı.
5) Burada hamınız bir yerdə yazılmısınız, qoymanam ayrılasınız.
6) İkinci sinifdə ədəbiyyat dərsləri nəhayət çətinləşib və bizim öz milli Azərbaycan dilimiz bilmərrə nəzərdən salınıb.

A) 2, 1, 6, 3, 4, 5 B) 1, 2, 6, 3, 4, 5
C) 1, 6, 3, 4, 5, 2 D) 6, 2, 1, 5, 3, 4
E) 3, 6, 1, 5, 4, 2

**19. Verilənlərdən hansılar “Koroğlu” dastanının eyni qoluna aiddir?**
I Bu qolda Koroğlu “Həmzənin Qıratı qaçırması” qoluna işarə edir.
II Koroğlu özünü aşıq və tacir kimi tanıdır.
III Həm Xoca Əziz, həm Aşıq Cünun xəbər gətirir.
IV Koroğlunun Ələmqulu xanın yanından qayıtdığı və səfərə çıxmadığı məlum olur.
V Koroğlunun dilindən “Borclu borclunun sağlığını istər” cümləsi deyilir.

A) I, IV B) II, III C) I, III
D) IV, V E) III, IV

**20. Hansı ədəbi hadisələr ilk komediyanın və ilk tragikomediyanın yaranması arasındakı dövrdə baş verir?**
1) Ana dilində nəsrlə hekayə janrının yazılması
2) İlk mənzum dramın yazılması.
3) Satirik poeziyanın təşəkkül tapması
4) Tənqidi realizm ədəbi cərəyanının formalaşması
5) Mənzum faciənin əsasının qoyulması

A) 1, 3 B) 2, 4 C) 2, 3, 5
D) 3, 4 E) 1, 4, 5

**21. Azərbaycan şifahi xalq yaradıcılığı ilə bağlı verilənlərdən səhv olanları müəyyənləşdirin.**
1. “Səməndər quşu” əfsanəsində oda inam, quşa tapınma motivləri öz əksini tapıb.
2. Heyvan və quş adları ilə bağlı əfsanələr zoonimik, yer adları ilə bağlı əfsanələr etnonimik, səma cisimləri haqqında əfsanələr kosmoqonik əfsanələr adlanır.
3. Rəvayətlər tarixən baş vermiş, bu və ya digər şəxsiyyətlə bağlı olan real həyat hadisələri zəminində yaranır.
4. Tapmacalarda əşyanın məcazi təsviri, onun səciyyəvi əlamətlərinin təqdimi əsas yer tutur.
5. Oxşamalar yumoristik məzmuna malik olub, uşaqların nitqinin, tələffüzünün inkişafına kömək edir.

6. “Qanadlı sözlər” dedikdə, əsasən, atalar sözü və məsəllər nəzərdə tutulur.
7. “Qodu-qodu” il quraqlıq keçəndə yağışçağırma mərasimində ifa edilən nəğmədir.

A) 1, 6, 7 B) 3, 4, 6 C) 1, 2, 7
D) 3, 4, 5 E) 2, 5, 7

**22. Biri Q.Zakirin yaradıcılığına aid edilə bilməz.**
A) Ədəbiyyatımızda satira janrının banisi kimi tanınır.
B) Mənzum hekayələrin gözəl nümunələrini yazmışdır.
C) Həm lirik, həm də epik növdə əsərlər yazmışdır.
D) Yaradıcılığı lirik, epik və satirik üslubların qovşağıdır.
E) Q.Zakirin lirik qəhrəmanı bəzən sevgilisini "buti-ziba" adlandırır.

**23. M.P.Vaqifin yaradıcılığı ilə bağlı yanlış olan fikri müəyyənləşdirin.**
A) M.P.Vaqif də M.Füzuli kimi şeirlərində real gözəlin təsvirini vermişdir.
B) Yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir səhifə açmışdır.
C) Ayrılıq yox, vüsal şairi kimi tanınmışdır.
D) Həm əruz, həm heca vəznində yazdığı şeirlərində ərəb-fars mənşəli sözlərə rast gəlmək mümkündür.
E) Gəraylı, rübai janrlarında şeir yazmamışdır.

**24. Eyni bəhrdə yazılmış əsərləri qruplaşdırın.**
1) “Neylərdin, ilahi” (M.Ə.Sabir)
2) “Məni candan usandırdı” (M.Füzuli)
3) “Guş qıl” (S.Ə.Şirvani)
4) “Türkün nəğməsi” (M.Hadi)
5) “Söz” (M.Füzuli)

A) 1 - 3; 2 - 4 - 5 B) 1 - 4 - 5; 2 - 3
C) 1 - 5; 2 - 3 - 4 D) 1 - 3 - 5; 2 - 4
E) 1 - 2 - 4; 3 - 5

**25. Nümunələri yazılma ardıcıllığına görə sıralayın.**
*1.Birisi sevdadan uzaqlaşdırar,*
*O biri sevdaya tuş edər məni.*
*2. Sordu ana kim, Səbamısan sən?*
*Eşq əhlinə aşinamısan sən?*
*3. El bir olsa, dağ oynadar yerindən,*
*Söz bir olsa, zərbi kərən sındırar.*
*4. Məktəbdə onunla oldu həmdəm,*
*Bir neçə mələkmisal qız həm.*
*5. Ya Rəb, bu cinayət, bu xəyanət, bu səfalət*
*Bulmazmı nihayət?*
*6. Dünyanı gəzərkən döndü hər yana,*
*Elədi çox böyük şəhərlər bina.*

A) 3, 2, 1, 4, 5, 6 B) 6, 2, 4, 3, 1, 5
C) 3, 6, 2, 4, 1, 5 D) 6, 3, 2, 5, 4, 1
E) 2, 4, 6, 5, 3, 1